**LALƏ MİRZƏYEVA**
**ADPU**
**muradmirzeyev1998@gmail.com**

# ƏDƏBİYYAT DƏRSLİKLƏRİNDƏ ŞİFAHİ NİTQ MƏZMUN XƏTTİNİN HƏYATA KEÇİRİLMƏSI YOLLARI

**Açar sözlər:** fənn kurikulumu, dərslik, məzmun xətti, şifahi nitq, dərs, şagird
**Key words:** subject curriculum, manual, content line, verbal speech, lesson, student
**Ключевые слова:** предметные куррикулумы, руководство, содержательная линия, устная речь, урок, ученик

Müasir dövr tələb edir ki, şagirdlər yalnız müəyyən biliklərə, bacarıqlara yiyələnməsin, eyni zamanda bu bilik və bacarıqları digər insanlara təqdim edə bilsin, yəni öz imkanlarını gözəl, düzgün yazılı və şifahi nitq ilə çatdıra bilsin. Məhz bu ictimai əhəmiyyətli tələb ehtiyyac təlimdə də diqqət edilən ən önəmli nüanslardan birinə çevrilmişdir. Düzdür, bu tələb, ehtiyyac hər zaman olmuş və yerinə yetirilməsi üçün çalışılmışdır. Lakin əsası 1999-cu ildə qoyulan kurikulumda bu məsələ xüsusilə diqqət mərkəzində saxlanılmışdır. Bu səbəbdəndir ki, 2012-ci ildə təsdiq edilən ədəbiyyat fənn kurikulumunda diqqət edilən, həyata keçirilən üç məzmun xəttindən (1.Ədəbiyyat və həyat həqiqətləri; 2.Şifahi nitq; 3.Yazılı nitq) ikisi məhz yazılı və şifahi nitqə aid edilmişdir.

Qeyd olunduğu kimi, dərsliklərdə reallaşdırılan məzmun xətlərindən biri şifahi nitq məzmun xəttidir. Şifahi nitq məzmun xətti bədii nümunələrlə bağlı fikirlərin obrazlı sözlərdən, bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə aydın, ardıcıl məqsədyönlü və yığcam ifadə edilməsinə imkan yaradır [4,s.5]. Yəni şagird bədii nümünə ilə bağlı fikirlərini ədəbi tələffüz qaydalarına uyğun, bədii təsvir və ifadə vasitələrindən istifadə edərək ifadə edir. Onlarda ifadəli oxu vərdişləri formalaşdırılır, yuxarı siniflərdə isə artıq natiqlik elementlərinin yaradılması diqqət mərkəzində saxlanılır. Ümumiyyətlə, şagirdlərdə şifahi nitq bacarıqlarının formalaşdırılması onların gələcək həyat fəaliyyətləri üçün ən zəruri məsələlərdəndir.

Onların hansı fəaliyyət sahəsi ilə məşğul olmasından aslı olmayaraq öz fikirlərini aydın, düzgün şəkildə qarşısındakı insanlara çatdıra bilməlidir.

Həyatda uğur qazanmağın bir sirri özünü ifadə edə biləcək düzgün, aydın, yığcam nitq bacarıqlarına malik olmaqdır. Ədəbiyyat dərsliklərində də bu məsələnin düzgün şəkildə həyata keçirilməsinə xüsusilə diqqət yetirilir.

Şifahi nitq məzmun xətti iki əsas standartdan , üç alt standartdan ibarətdir. Əsas standartlar:

2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.
2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.

Şifahi nitq məzmun xəttinin həyata keçirilməsi ilə bağlı Vlll sinif Ədəbiyyat dərslik kompleksinə diqqət yetirək. Qasım Bəy Zakirin "Durnalar" qoşması [2,s.77] dərslikdə tədris edilən mövzulardan biridir. Mövzunun tədrisi üçün üç saat vaxt ayırılmışdır (2-si məzmun dərsi, 1-i isə təhlil üçün). Mövzu ilə əlaqədar metodik vəsaitə baxdıqda orada şifahi nitq məzmun xəttinin reallaşdırılmasına hər üç alt standartın seçildiyini görürük:

2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarda sitatlardan, bədii təsvir və ifadə vasitələrindən istifadə edir.
2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini müqayisələr aparmaqla şərh edir.
2.2.1. Müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirir.

Qeyd olunan bu alt standartlarından ilk ikisi məzmun dərsində, sonuncu isə təhlil dərsində reallaşdırılır. Alt standartlar dərsin reallaşdırmalı olduğu təlim nəticələrini özündə əks etdirir. Bu nəticələrin hansı yollarla üsullarla reallaşdırılmalı olduğu isə müəllimin metodik bacarığından, sinfin inkişaf səviyyəsindən çox aslıdır. Məsələn, şagirdlərə məzmun dərslərində şifahi nitqlə bağlı bu tipli tapşırıqlar verilə bilər:

a) Şeirlə bağlı 3 dəqiqəlik çıxış hazırlayın və bu çıxışınızda şeirin mövzusuna uyğun minimum 3 sitatdan istifadə edin.

b) Şeirdə işlənən bədii təsvir və ifadə vasitələrindən istifadə edərək 2 dəqiqəlik təqdimat hazırlayın.

c) Bədii təsvir və ifadə vasitələrindən, sitatlardan istifadə edərək vətən həsrəti, yurd sevgisi ilə bağlı çıxış hazırlayın. ç) "Durnalar" mövzusunda yazılan digər şeirlərlə Q.Zakirin şeirinin müqayisəsinə həsr olunan 5 dəqiqəlik təqdimat hazırlayın. və s.

Eyni zamanda şagirdləri dialoji nitqə cəlb etmək üçün onlara bildirilir ki, vətən həsrətini ifadə edən əksər şeirlərdə "durna"lara müraciət olunur. Sinfi iki qrupa bölərək, durnaların müraciət obyekti olmasını dəstəkləyən və əleyhinə fikir bildirən iki qrup arasında debatlar, disqusiyalar təşkil edilə bilər. Məhz bu cür tapşırıqlar, müzakirələr şagirdlərin şifahi nitq bacarıqlarının inkişaf etməsində mühüm rol oynayır. Təbii ki, qeyd edilən bu tapşırıq nümunələri nümunə xarakterlidir.

Tapşırıqlar sinifin bilik səviyyəsinə, dünyagörüşünə, maraq dairəsinə uyğun hazırlanmalıdır. Məhz o zaman şagirdlərdə tədqiqatçı ruhu formalaşacaq, onu tədqiqatçılıq fəaliyyətinə istiqamətləndirəcək. Yəni,

şagird özü tapşırığı icra etməyə maraqlı olacaq, həvəslə onu icra edəcək. Dərsdə slayd hazırlamağı bacaran şagirdlərə mövzuya uyğun təqdimatlar hazırlamağı da tapşırmaq olar. Bu zaman şagirdlərdə nəinki sinifdə, eyni zamanda məktəb tədbirlərində, respublika üzrə həyata keçirilən yarışlarda, müsabiqələrdə çıxış edə bilmək, öz fikir və düşüncələrini sərbəst ifadə edə bilmək bacarıqları formalaşır.

Dərslikdə şifahi nitq məzmun xətti üzrə işin reallaşdırılması üçün beyin həmləsi ( əqli hücum) metodundan geniş istifadə etmək olar.

Dərsin motivasiya mərhələsindən qiymətləndirmə mərhələsinə qədər yönəldici suallar ( Şeirdə nə üçün məhz durnalara müraciət olunub?, Sən Q.Zakirin yerində olsaydın şeirdə nələrin təsvirinə üstünlük verərdin?, Durnalar haqqında hansı məlumatları bilirsiz? (zoologiya, coğrafiya fənni ilə inteqrasiya yaradaraq) və s.) verərək şagirdlərin şifahi nitq bacarıqlarını (məzmun xəttinin tələbləri mövqeyindən) inkişaf etdirmək olar.

Şifahi nitq məzmun xətti üzrə alt standartları dərs prosesində reallaşdırmaq üçün maraqlı üsullardan, formalardan istifadə etmək lazımdır. Dərs prosesində yalnız dərslik və metodik vəsaitdə verilən nümunələrlə yetinmək olmaz. Standartları reallaşdırmaq işinə yaradıcı yanaşmaq lazımdır. Bir aforizmdə qeyd edilirdi ki, "Mən qaymaqlı çiyələk xoşlayıram, balıq isə soxulcan. Mən balıq tutmağa gedərkən nəyi xoşladığımı deyil, balığın nə seviyini düşünməliyəm".

Düşünürəm təlim də bu düşüncə əsasında aparılmalıdır. Müəllim təlim nəticələrinə şagirdin xoşladığı yolla getməyi bacarmalıdır. Məhs bu zaman arzu olunan nəticələrə asanlıqla çatmaq mümkün olar. Hər bir müəllim parta arxasından şagirdin mövqeyindən baxmağı bacarmalıdır.

## Ədəbiyyat

1.Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramı. Bakı, 1999.
2.Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənn kurikulumu (V-Xl siniflər)/ Azərbaycan müəllimi, 24 dekabr 2010.
3.Əliyev S. Həsənov B. Mustafayeva A. Verdiyeva N.Məmmədova S. Ədəbiyyat. 8-ci sinif üçün dərslik. Bakı, 2017.
4.Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2014.

5. Həsənov B., Əliyev S., Verdiyeva N., Mustafayeva A., Məmmədova S. Ədəbiyyat. 8-ci sinif. Müəllim üçün metodik vəsait. Bakı-2015.
6. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2015.
7. Yusifov H. Ədəbiyyat fənn kurikulumu haqqında. //Dil və Ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, 2013, №1 (85).

**L.Mirzayeva**

## Ways to implement oral speech content in literary textbooks

### Summary

In the article is spoken from the implementation of the oral speech content line. It is shown that it is important to have oral speech skills. The formation of oral speaking skills is done at school.

That is, three content lines should be realized in the lesson. It is important to consider the interest of the student at the level of development when conducting studies on oral content. In this case, students will be interested in education and will fulfill the tasks and questions given.

Developing students' oral speaking skills plays an important role in their future activities. Having a certain knowledge and skill in life is not enough to succeed. You also have to transfer it to people. The oral line of content is aimed at raising it. To do so is based on the teacher. Teacher should be creative in the lesson process.

I would also like to mention it all these concepts allow to realize the purpose of the literature subject. At the same time application of technologies in learning process and their impact on development of cognitive activity of pupil will be analyzed. Therefore, these issues should be carefully considered in learning process.

**Л.З.Мирзоева**

**Способы осуществления содержания оральной речи в литературных учебниках**

**Резюме**

В статье говорится о реализации устной речи в содержательной строке. Показано, что важно иметь навыки устной речи. Формирование навыков устной речи осуществляется в школе. То есть три урока должны быть реализованы в уроке. Важно учитывать интерес студента к уровню развития при проведении занятий по устному содержанию.

В этом случае студенты будут заинтересованы в образовании и будут выполнять поставленные задачи и вопросы. Развитие навыков устной речи студентов играет важную роль в их будущей деятельности. Наличие определенных знаний и навыков в жизни недостаточно для успеха. Вы также должны передать это людям. Устная линия содержания направлена на ее повышение. Это зависит от учителя. Учитель должен быть творческим в процессе урока.

Хотелось бы также упомянуть, что все эти понятия позволяют реализовать назначение предмета литературы. Здесь также влияют технологии, используемые в процессе обучения,и их влияние на когнитивное развитиеучащихся. Поэтому эти вопросы должны быть тщательно рассмотрены в процессе обучения.

**Rəyçi: N.Ə.Abdullazadə**
**Pedaqogika üzrə fəlsəfə doktoru, dosent**